## Biznes və insan hüquqları sahəsində beynəlxalq əməkdaşlıq

Biznes və insan hüquqları anlayışı şirkətlərin fəaliyyətinin insan hüquqlarına təsirini nəzərə alaraq, onların məsuliyyət daşımasını təmin etməyə yönəlib. BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri dövlətlərin və biznes subyektlərinin insan hüquqlarını qorumaq və hörmət etmək öhdəliklərini müəyyən edir.

Milli İnsan Hüquqları İnstitutları (MİHİ-lər) biznes və insan hüquqları sahəsində monitorinq aparır, tövsiyələr verir, şikayətləri araşdırır və maarifləndirmə işləri görür.

Azərbaycan Ombudsman təsisatı biznes və insan hüquqları sahəsində araşdırmalar aparır, qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflər irəli sürür, dövlət qurumları və özəl sektorla əməkdaşlıq edir, insan hüquqları pozuntuları ilə bağlı müraciətləri nəzərdən keçirir və ictimai maarifləndirmə tədbirləri təşkil edir.

- **Biznes və insan hüquqları sahəsində beynəlxalq ekspertin iştirakı ilə Azərbaycanda təşkil olunan seminar:**

2022-ci ilin oktyabr ayında Ombudsman Aparatı və BMT-nin İnkişaf Praqramının ölkə üzrə nümyəndəliyinin dəstəyi ilə ilk dəfə olaraq Aparatın əməkdaşları və vətəndaş cəmiyyəti institutları üçün biznes və insan hüquqları sahəsində seminar təşkil olunmuşdur. Seminar hibrid formatda keçirilib və Ombudsman Aparatının əlaqəndirməsi ilə TURKOMB-a üzv qurumların əməkdaşlarının da həmin təlimdə iştirakı təmin olunub.

- **Biznes və insan hüquqları mövzusunda konfrans:**

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının 20 illik yubileyi münasibətilə 2022-ci ilin 19-20 oktyabr tarixində “Biznes və insan hüquqları sahəsində ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu” mövzusunda Ombudsmanların Bakı Beynəlxalq Konfransı keçirilmişdir.

Konfransın məqsədi biznes və insan hüquqları sahəsində mövcud tendensiyalar və çağırışlar barədə müzakirə aparılması, müsbət ölkə təcrübələrinin paylaşılması olmuşdur.

Konfransda Türkiyə, Pakistan, Mərakeş, İndoneziya, Moldova, Yaponiya, Honq Konq, Şimali Kipr, Səudiyyə Ərəbistanı, Qırğızıstan, İran, Özbəkistan, Qazaxıstan, Macarıstan, Çin və Koreyanın ombudsman və milli insan hüquqları təsisatlarının rəhbərləri və əməkdaşları, habelə beynəlxalq təşkilatların və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak etmişlər.




- **Biznes və insan hüquqları sahəsində təlim səfəri:**

BMT-nin İnkişaf Proqramının dəstəyi və Ombudsman Aparatının əlaqələndirməsi ilə 2022-ci ildə ilk dəfə olaraq Aparatın 8 nəfər əməkdaşı Danimarkanın İnsan Hüquqları İnstitutunda biznes və insan hüquqları sahəsində təlim səfərində olmuş və bu sahədə bilik və təcrübələrini

artırmaqla yanaşı, aidiyyəti sahədə milli qiymətləndirmə sənədinin hazırlanması ilə bağlı fikir mübadiləsi aparmışlar.

2024-cü ildə BMT-nin Biznes və İnsan Hüquqları sahəsində rəhbər prinsipləri nəzərə alınmaqla Ombudsman Aparatı tərəfindən BMT-nin İnkişaf Proqramının ekspertlərinin rəy və təklifləri nəzərə alınaraq milli qiymətləndirmə sənədi (National Baseline Assessment) hazırlanmışdır.



- **GANHRI-nin Biznes və insan hüquqları mövzusunda keçirilən konfransında iştirak:**

  2024-cü ildə Ombudsmanın rəhbərlik etdiyi nümayəndə heyəti Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının (GANHRI) Cenevrə şəhərində keçirilən illik iclası çərçivəsində "Biznes və insan hüquqları: Milli insan hüquqları təsisatlarının rolu və təcrübələri" mövzusunda tematik sessiyada iştirak etmişdir.

  Ombudsman həmin sessiyada çıxışı zamanı ölkəmizdə Biznes və insan hüquqları sahəsində Rəhbər Prinsiplərin milli qanunvericiliyə

implementasiyası üzrə aparılan işlər, müvafiq sahə ilə bağlı perspektivlərin və müsbət təcrübələrin öyrənilməsi məqsədilə həyata keçirilən geniş məsləhətləşmələr, müzakirələr, bu sahədə insan hüquqlarının təşviqi və müdafiəsi istiqamətində təşəbbüslərlə bağlı məlumat vermişdir. Həmin sessiya çərçivəsində BMT-nin İnkişaf Proqramının Biznes və insan hüquqları üzrə qlobal rəhbəri Livio Sarandrea ilə görüş keçirilmiş, biznes və insan hüquqları sahəsində milli qiymətləndirmə sənədi ilə əlaqədar müzakirələr aparılmışdır.




- **Asiya Ombudsman Assosiasiyasının iclasında iştirak:**

  2024-cü ildə Ombudsmanın rəhbərlik etdiyi nümayəndə heyəti Asiya Ombudsman Assosiasiyasının (AOA) Direktorlar Şurasının Türkiyənin İstanbul şəhərində keçirilən 25-ci iclasında iştirak edib. Ombudsmanın təklifi əsasında həmin iclas çərçivəsində biznes və insan hüquqları ilə bağlı xüsusi sessiya keçirilib. Həmin sessiyada BMT-nin İnkişaf Proqramının İstanbul regional mərkəzinin nümayəndəsi tərəfindən "Biznes və insan hüquqları üzrə ilkin qiymətləndirmə sənədi: Azərbaycan təcrübəsi" mövzusunda təqdimat keçirilib. Təqdimat zamanı müvafiq sahədə BMTİP-nin Azərbaycandakı nümayəndəliyinin

Ombudsman təsisatı ilə birgə həyata keçirdiyi əməkdaşlıqdan, milli qiymətləndirmə sənədinin hazırlanması prosesindən bəhs olunub.

Tədbirin yekununda AOA-nın cari ildə Azərbaycan Ombudsman Aparatı tərəfindən biznes və insan hüquqları sahəsində məlumatlılığın artırılmasına dair Assosiasiyaya üzv qurumlar üçün təlim keçirmək təklifi iştirakçılar tərəfindən qəbul olunmuş və həmin ilin tədbirlər planına daxil edilmişdir.



- **Asiya Ombudsman Assosiasiyası ilə əməkdaşlıqda biznes və insan hüquqları sahəsində maarifləndirmə:**

  AOA-nın İstanbulda keçirilən Direktorlar Şurasının 25-ci iclasında qəbul edilmiş qərar əsasında 2024-cü ilin 17 dekabr tarixində BMT-nin İnkişaf Proqramının dəstəyi ilə Ombudsman Aparatı və AOA-nın birgə təşkilatçılığı ilə biznes və insan hüquqları sahəsində təcrübə mübadiləsinə dair onlayn tədbir təşkil edilmişdir.

  Pakistan, İndoneziya, Türkiyə, Malayziya, Tailand, Tatarıstan və digər ölkələrin ombudsman və milli insan hüquqları institutlarının nümayəndələri, İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar

Assosiasiyasının üzvləri, dövlət qurumlarının və transmilli şirkətlərin nümayəndələrinin iştirak etdiyi tədbirdə Ombudsman çıxış edərək insan hüquqlarının səmərəli müdafiəsi ilə bağlı biznes və insan hüquqları mövzusuna AOA kimi geniş bir regionu əhatə edən təşkilat tərəfindən xüsusi diqqət yetirilməsinin əhəmiyyətini vurğulayıb. Daha sonra tədbirdə Aparatın Beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şöbəsinin müdiri tərəfindən “Biznes və İnsan Hüquqları” üzrə milli qiymətləndirmə sənədinin hazırlanması prosesi haqda iştirakçılara geniş məlumat verilib. Tədbirdə həmçinin BMT-nin İnkişaf Proqramının eksperti Harpreet Kaur tərəfindən müvafiq sahə üzrə qlobal səviyyədə görülən işlər barədə geniş təqdimat edilib.

